Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

World Health Organization Azerbaijan



# PEYVƏNDLƏR

## HAQQINDA TEZ-TEZ SORUŞULAN SUALLAR VƏ CAVABLAR

Peyvəndlə bağlı tərəddüdlərinizi aradan qaldırın!

# Mən uşağımı nə üçün peyvənd etdirməliyəm?

Peyvəndlər insan həyatını təhlükəli xəstəliklərdən qoruyur. Dünyada hər il uşaqların vaksinasiyası sayəsində 4 milyon ölümün qarşısı alınır. Peyvəndlər uşağınızı, xüsusilə immun sistemi zəif inkişaf etmiş körpələri ciddi fəsadlara və ya ölümə səbəb ola biləcək xəstəliklərdən qoruyur.

Uşağınızın profilaktik peyvənd təqviminə uyğun olaraq vaxtında peyvənd olunması vacibdir. Vaksinasiyanın əhatəsi aşağı düşdükdə ölkələrin çoxunda kökü kəsilməkdə olan qızılca, difteriya, poliomielit kimi yüksək yoluxucu və təhlükəli xəstəliklər geri qayıda bilər.

# Yaşadığım yerdə bu cür xəstəliklər yoxdursa, mən hələ də uşağımı peyvənd etdirməliyəmmi?



Bəli. Yaşadığınız ölkədə bu xəstəliklərə rast gəlinmirsə belə, bu xəstəliklərin mövcud olduğu ölkələrdən gələn insanlar uşağınızı yoluxdura bilər. Peyvəndlər sayəsində bir sıra ölkələrdə poliomielit kimi müxtəlif xəstəliklər artıq mövcud olmasa da, digərlərində poliomielitə hələ də rast gəlinir. Beləliklə, insanlar peyvənd olunmağı dayandırsa, bu xəstəliklər yenidən əmələ gələ və peyvənd olunmamış insanların hamısını riskə məruz qoya bilər. Uşağınızın təhlükəli xəstəliklərdən qorunduğuna əmin olmaq üçün onu profilaktik peyvənd təqviminə uyğun peyvənd etdirin.

# Xəstəliyi keçirmək, yoxsa peyvənd olunmaq yaxşıdır? Uşaq artıq xəstəliyi keçiribsə, yenə də peyvənd olunmalıdırmı?

Uşağın xəstələnməyini gözləmədən peyvənd etdirmək mütləqdir, çünki xəstəliklərin fəsadları ağır və ölümcül ola bilər.

Əgər uşağınız peyvəndlə qarşısı alına bilən xəstəlikləri keçiribsə belə, siz onu yenə də peyvənd etdirməlisiniz. Bu çox vacibdir, çünki:

- iki yaşından kiçik uşaqlar bəzi infeksiyaları (hemofil infeksiyası, meningit və pnevmoniya) keçirdikdən sonra yetərli səviyyədə təbii immunitet əldə etmirlər;

- uşaq xəstəliyə yoluxduqda virus və ya bakteriyanın yalnız bir növünə yoluxur. Lakin peyvənd uşağı eyni xəstəliyi törədə biləcək mikrobun bir çox növündən qoruyur. Məsələn, Azərbaycanda tətbiq olunan pnevmokok əleyhinə peyvənd (Pk) uşağı pnevmokok bakteriyasının 13 növündən qoruyur.

- bəzi peyvəndlər uşağı cəmi bir inyeksiya ilə bir neçə xəstəlikdən qoruyur, halbuki uşağın yoluxduğu bir xəstəlik uşağı bütün xəstəliklərdən qoruya bilməz. Məsələn, QPM peyvəndi qızılcadan, parotit və məxmərəkdən, GDT peyvəndi isə göyöskürəkdən, difteriya və tetanusdan qoruyur. Ancaq uşaq təkcə qızılca keçiribsə, bu onu parotit və məxmərəkdən qorumayacaq.



# Peyvəndlər necə işləyir?

Peyvəndin tərkibinə xəstəliyə səbəb olan virusun və ya bakteriyanın çox zəiflədilmiş və ya zərərsizləşdirilmiş forması, yaxud onun kiçik bir hissəsi daxildir. İnsan orqanizminə peyvənd yeridildikdən sonra onun immun sistemi müvafiq infeksiyaya qarşı mübarizə aparmaq və xəstəliyə səbəb olan virus və ya bakteriyanı məhv etmək üçün xüsusi zülallar (anticisimlər) hasil etməyə başlayır. Beləliklə, peyvənd olunmuş şəxs sonradan həqiqi virus və ya bakteriya ilə təmasda olduqda, onun immun sistemi bu virus və ya bakteriyanı tanıyacaq və anticisimlərin köməyi ilə xəstəliyin inkişaf etməsinin qarşısını alacaqdır. İnsan peyvənd olunmaqla virus və bakteriyanın ötürülməsini ləngidir. Beləliklə o tək özünü deyil, həmçinin xüsusi sağlamlıq problemləri ilə bağlı (məs. ağır xroniki xəstəliklər, xərçəng) peyvənd vurdura bilməyənləri də xəstəlikdən qoruyur.



# Peyvəndlər təhlükəsizdirmi?

Peyvəndlər təhlükəsizdir. Bütün peyvəndlər istifadəsinə icazə verilməzdən əvvəl ciddi təhlükəsizlik və effektivlik testlərindən, o cümlədən klinik sınaqlardan keçirilir. İstifadəyə verildikdən sonra belə onların təhlükəsiz olmasına davamlı şəkildə nəzarət edilir.



Uşağın peyvəndlə qarşısı alına bilən xəstəliyin ciddi fəsadlarına məruz qalma riski peyvənddən yarana biləcək ciddi reaksiyadan daha yüksəkdir. Peyvəndlə qarşısı alına bilən xəstəliklərin çoxu potensial olaraq ölümcüldür. Məsələn, tetanus xəstəliyi hədsiz ağrılara, əzələ qıcolmalarına və qan laxtalanmasına, qızılca isə ensefalitə (beyin iltihabına) və nəticədə görmə qabiliyyətinin tam itirilməsinə səbəb ola bilər.

# Peyvəndlərin mənşəyinin əhəmiyyəti varmı?



Peyvəndlərin mənşəyinin əhəmiyyəti yoxdur. Hansı ölkədə istehsal edilməsindən asılı olmayaraq, istifadəyə verilməzdən əvvəl peyvəndlər ciddi yoxlama və təsdiq prosesindən keçirilir. Azərbaycanda dövlət müəssisələrində tətbiq edilən bütün peyvəndlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiq olunmuş peyvəndlərdir.

Uşağınızın profilaktik peyvənd təqviminə uyğun olaraq müvafiq tibb müəssisəsində peyvənd olunmasını təmin edin.

# Uşağa bir neçə peyvəndin eyni vaxtda vurulması təhlükəsizdirmi?

Eyni vaxtda bir neçə peyvəndin tətbiq edilməsi uşağın immun sistemini pozmur. Uşağınızı təhlükəli xəstəliklərdən qorumaq üçün tələb olunan səviyyədə immunitetin yaranmasını təmin etmək vacibdir. Bunun üçün peyvəndlərin bütün dozaları profilaktik peyvənd təqviminə uyğun vaxtında vurulmalıdır.



# Vaxtından əvvəl və ya az çəki ilə doğulan körpələr peyvənd olunmalıdırmı?



Vaxtından əvvəl və ya az çəki ilə doğulmuş körpələr profilaktik peyvənd təqviminə uyğun adi qaydada peyvənd olunmalıdır. Belə körpələrin qorunması xüsusilə vacibdir, çünki onlarda infeksion xəstəliklərdən müdafiə daha da aşağı dərəcədə olur və xəstələnmə ehtimalı artır. Bu kimi körpələr pediatrın təyinatı əsasında vaksinasiyaya yararlı hesab edildikdə peyvənd oluna bilər.

# Uşağım xəstədirsə, peyvənd olunmalıdırmı?

Vaksinasiyanı təxirə salmaq üçün çox az sayda tibbi səbəb vardır. Yüngül formada öskürəyi və soyuqdəyməsi olan və ya antibiotik qəbul edən körpələr və uşaqlar vaksinasiya oluna bilər.

Uşağınızın vaksinasiyaya uyğun olub-olmadığından narahatsınızsa, onun peyvənd edilməsini təxirə salmazdan əvvəl həkiminizlə bu barədə danışın. Peyvəndlərin profilaktik peyvənd təqviminə uyğun olaraq vaxtında tətbiq olunması olduqca vacibdir!

Cəmiyyətdə geniş yayılmış əsassız fikirlərə görə bəzi sindrom və xəstəliklərin rast gəlindiyi uşaqlar peyvəndləmədən kənarda qalır. Halbuki bu uşaqların peyvənd edilməsi çox vacibdir, çünki onlar infeksiyalardan ağırlaşma riskinə daha çox məruz qalırlar.

Məsələn, aşağıda qeyd olunan hallar peyvəndləmədən yayınmağa səbəb deyil:

- **Serebral iflic;**
- **Daun sindromu;**
- **Epilepsiya;**
- **Astma, ekzema, allergik rinit və başqa növ allergiyalar** (yumurtaya güclü allergiyası olan uşaqlara qrip peyvəndi istisna olmaqla bütün peyvəndlər tətbiq edilə bilər);
- **İnhalyator vasitəsilə və ya krem formasında steroidlərin qəbulu;**
- **Cərrahi əməliyyatlar.**

***Qan köçürülmüş və ya qan preparatları almış uşaqların** QPM peyvəndi ilə vaksinasiyası təxirə salınmalıdır.

***Xərçəng və ya immun çatışmazlığı xəstəliyi** olan, yaxud da infeksiyaya qarşı mübarizə qabiliyyətini azaldan dərmanları qəbul edən uşaqların vaksinasiya məsələsi diqqətlə nəzərdən keçirilməlidir. Bunu həkiminizlə müzakirə edin.

# Mən peyvəndlərin vurulmasında gecikmələrə yol verə bilərəmmi? Gecikdirmişəmsə nə etməliyəm?



Peyvənd təqvimi elmi sübutlara əsaslanaraq tərtib olunub. Hər peyvəndin təqvimə uyğun yaşda vurulması çox vacibdir, çünki həmin yaş dövründə uşağınızın peyvəndlə qarşısı alınan təhlükəli xəstəliklərə məruz qalma riski olduqca yüksəkdir. Həmçinin, bu yaş dövründə peyvəndləmə nəticəsində daha güclü immunitet yaranır. Buna görə də peyvəndlərin gecikdirilməsi uşaqların təhlükəli xəstəliklərə yoluxma riskini artırır.

Gecikdirilmiş bəzi peyvəndləri müəyyən yaş həddinə qədər sonradan vurdurmaq mümkündür. Uşağınızın əskik peyvənd dozalarını tamamlamaq üçün gecikmədən həkiminizə müraciət edin. Unutmayın ki, siz peyvəndi gecikdirdiyiniz müddətdə uşağınız ciddi zərərə və hətta ölümə səbəb ola biləcək infeksiyalara məruz qala bilər.

# Peyvənd olunduqdan sonra hansı reaksiyalar baş verə bilər? Onlar təhlükəsizdirmi?

Bəzi uşaqlarda peyvəndləmədən sonra yüngül qızdırma, narahatlıq və peyvəndin vurulduğu nahiyədə qızartı, şişkinlik və yüngül ağrı müşahidə oluna bilər. Belə reaksiyalar sizi narahat etməməlidir, çünki onlar normal hesab edilir və tez bir zamanda keçib gedir.

Peyvənd vurulduqdan sonra ciddi yan təsirlər olduqca nadir hallarda baş verir. Əgər uşaqda sizi narahat edən hər hansı reaksiya olarsa, həkiminizə müraciət edin.

# Peyvənd autizmə səbəb olurmu?

Peyvəndlər və autizm (autistik spektr pozuntuları) arasında əlaqəyə aid heç bir elmi sübut yoxdur. Peyvəndin autizmə səbəb olma ehtimalı daha çox onun tərkibində cüzi miqdarda olan tiomersal adlı maddə ilə əlaqələndirilir. Çoxsaylı tədqiqatların nəticələrinə əsasən sübut olunmuşdur ki, peyvəndlərin tərkibində istifadə olunan tiomersalın cüzi miqdarının autistik spektr pozuntusu ilə əlaqəsi yoxdur.



## Peyvənd sizi və övladlarınızı təhlükəli xəstəliklərdən qoruyur!

# #Peyvəndin Vaxtını Gecikdirmə

# #Hər Doza Vacibdir

# #Peyvənd Haqqında Danışaq

Kitabça Avropa İttifaqının maliyyə dəstəyi ilə çap olunub. Buradakı məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti ÜST-nin Ölkə Ofisi daşıyır.